# DAHİ BƏSTƏKARLA BİR GÖRÜŞÜN TARİXÇƏSİ...

**Gəncənin dünya mədəniyyəti və incəsənətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biri də bəstəkar Fikrət Əmirovdur. SSRİ Xalq artisti, SSRİ və Azərbaycan SSR Dövlət Mükafatları laureatı, bir sıra digər fəxri adların və mükafatların sahibi Fikrət Əmirov Gəncə şəhərində məşhur musiqiçi Məşədi Cəmil Əmirovun ailəsində dünyaya gəlib.**





FİKRƏT ƏMİROV:

**QAYĞI DA VAR, YÜKSƏLİŞ DƏ...**

*SSRİ xalq artisti, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, bəstəkar Fikrət Əmirov və respublika Dövlət mükafatı laureatı, baletmeyster Nailə Nəzirova şəhərimizə gəlmiş, Kirovabadın mədəni həyatı ilə tanış olmuş, Nizami poeziya teatrının tamaşasına, "Gəncə toyu" rəqs-kompozisiyasına baxmış, folklor xorunun musiqi nömrələrini dinləmişlər.*

*– Fikrət müəllim,sizin Kirovabada gəlişiniz şəhərimizin mədəni həyatında əlamətdar hadisəyə çevrilir, sevimli dinləyicilərlə keçirdiyiniz görüşlər əsl sənət bayramını xatırladır. Həmin görüşlərdən aldığınız xoş təəssüratı həmişə ürəklə bizimlə bölüşdürürsünüz. Hər bir kirovabadlı bilir ki, siz bu şəhəri sevirsiniz. Budur, yenidən Kirovabaddasınız,*



Onun milli musiqini mənimsəməsində doğulub, boya-başa çatdığı mühitin, atası Məşədi Cəmilin müstəsna rolu olub. Dövrünün məşhur tarzəni kimi tanınan Məşədi Cəmil İstanbulda professional musiqi sənətinə yiyələnmiş, türk musiqi mühiti onun gələcək yaradıcılığına böyük təsir etmişdir. İstanbuldan qayıtdıqdan sonra isə Gəncədə yaşamışdır. 1923-cü ildə qədim şəhərdə ilk musiqi məktəbinin yaradıcısı və direktoru da Məşədi Cəmil olub. Dahi bəstəkar Üzeyir Hacıbəyli Gəncə məktəbinin ilk direktoru Məşədi Cəmillə yaxın şəxsi münasibətləri olub və musiqi məktəbinin tədris planlarının hazırlanmasında, məktəbə ölkənin müxtəlif şəhərlərindən ali musiqi təhsili olan müəllimlərin dəvət edilməsində Məşədi Cəmil Əmirova yaxından kömək göstərib. Gəncədəki həmin məktəb indi də fəaliyyət göstərir və Fikrət Əmirovun adını daşıyır.

Belə qaynar mühitdə böyüyən Fikrət Əmirov böyük sənət yoluna atasının yaxın dostu, dahi bəstəkar Üzeyir Hacıbəylinin xeyir-duası ilə qədəm qoyub. Gənc tarzən kimi o vaxt şəhərdə fəaliyyət göstərən Dövlət Filarmoniyasının ilk solistlərindən olub. Görkəmli bəstəkar doğulduğu şəhərə tez-tez gələr, burada keçirilən mədəni-kütləvi tədbirlərdə həvəslə iştirak edərdi. Belə səfərlərdən birində onunla görüşmək, doğma şəhərdən aldığı təəssüratlar haqqında şəhər qəzetinə məqalə hazırlamaq mənə də nəsib olub. 1979-1980-ci illər qədim şəhərin yüksəliş səlnaməsində çox şərəfli səhifə təşkil edir. O illərdə Gəncə respublikada keçirilən mədəni tədbirlərin mərkəzinə çevrilərdi və bu görüşlərdə təkcə respublikamızda deyil, ittifaq miqyasında tanınmış mədəniyyət və incəsənət xadimləri, yazıçı və şairlər iştirak edərdilər. Yazıçı və şairlər Anar, Nəriman Həsənzadə, Hüseyn Arif, Əzizə Cəfərzadə, Mirvarid Dilbazi, Cəmil Əlibəyov, Tofiq Bayram, Nüsrət Kəsəmənli və başqaları ilə keçirilən görüşlər, onlarla söhbətlərimiz "Gəncənin səsi" qəzetinin o vaxtkı səhifələrində "yaşayır". Bəstəkar Fikrət Əmirovla görüşüm də həmin o illərə təsadüf edir.

Qəzetin redaktoru çağırıb dedi ki, bəstəkar Fikrət Əmirov Gəncədədir, şəhərdə aparılan yenidənqurma və abadlaşdırma işləri ilə tanış olur, həmyerliləri ilə görüşlərdə iştirak edir. Şəhər partiya komitəsindən tapşırıq verilib ki, onunla görüşüb, şəhərimiz haqqında, burada həyata keçirilən işlər barədə təəssüratlarını oxucularımızla bölüşək. Qəzetimizin fotomüxbiri Rum Arıxovla yollandıq bəstəkarın "hüzuruna". Mən söhbət aparıb, qeydlər etməli, Arıxov da fotolar çəkməli idi. Gənc müxbir kimi dünyaşöhrətli bəstəkarla söhbətimiz çox maraqlı və yaddaqalan oldu, 40 ildən artıq vaxt keçsə də, bütün təfərrüatlar bugünkü kimi yadımdadı. Müsahibə hazır olduqdan sonra oxunması üçün birinci katibə təqdim edildi. Qayda belə idi, şəhərdə həyata keçirilən işlərlə bağlı yazılanları şəxsən birinci katib oxuyurdu. Özü də həssaslıqla oxuyar, lazım bildiyi düzəlişləri də edirdi. Jurnalistlər yazdıqlarına kənar müdaxiləyə çox qısqanclıqla yanaşarlar. Amma Həsən Həsənovun qeyd və düzəlişlərini təcrübəli jurnalistlər də qəbul edirdilər. Elə həssas əlavə və düzəlişlər edirdi ki, razılaşmamaq mümkün deyildi. Partiya işçisi olsa da, redaktələrində təcrübəli redaktor səriştəsi hiss olunurdu. Bir qədər sonra dedilər, Həsənov səni çağırır və otağa daxil olanda müsahibə əlində idi, hiss olunurdu ki, oxuyub, düzəlişlərini edib.

- Yazı çap üçün hazırdır, dedi, - söhbət zamanı Fikrət Əmirova özünü şəhər qəzetinin müxbiri kimi təqdim etdinmi?

Sual məni çaşdırdı. Çünki jurnalist kimi müsahibə almaq üçün artıq məni təqdim etmişdilər. Belə incə məqama əhəmiyyət verməmişdim. Cavabım birinci katibi razı salmadı.

- Fikrət müəllim, şəhər dəmiryol vağzalındadır, bir azdan qatar yola düşəcək, çalış çat, şəhər qəzetinin müxbiri kimi özünü təqdim et. Çatmasan Bakıya yollan. Fikrət Əmirov beynəlxalq aləmdə tanınan məşhur bəstəkardır, dünya ölkələrinə çoxsaylı səfərləri olur, qəzet və jurnallara, radio və televiziyalara müsahibələr verir. Ola bilsin, sənin müsahibəni oxumaq fürsəti olmayacaq, amma Gəncənin şəhər qəzetinin müxbirinə müsahibəsi yadında qalsa, burada görülmüş işləri də söhbət düşəndə xatırlayacaq. Sonra əlavə etdi ki, Gəncə respublikanın ikinci sənaye və mədəniyyət mərkəzidir, burada şəhər qəzeti ilə yanaşı, ölkə mətbuatının çoxsaylı bölgə müxbirləri də fəaliyyət göstərir. Haqlı irad idi.

Tələsik dəmiryol vağzalına yollandıq, biz çatanda, qatarın yola düşməsinə çox az vaxt qalırdı. Vağzalda qələbəlik idi, gəncəlilər dünyaşöhrətli həmyerlilərini yola salırdılar.

Nə qədər çətin olsa da bəstəkarla görüşmək imkanı tapdıq. Bizi sual dolu baxışlarla qarşıladı.

- Nəsə yaddan çıxıb? - deyə soruşdu. Gəlişimizin səbəbini biləndə gülümsündü:

- Gəncəyə səfər, qədim şəhərdən, həm də mənim doğma şəhərimdən aldığım təəssüratlarla bağlı şəhər qəzetinin gənc müxbirinə müsahibəm yadımdan çıxmayacaq dedi. Bu təəssüratları yazanda şəxsi fotoalbomumda görkəmli bəstəkarla birgə çəkilmiş foto axtardım. Tapılmadı. Fotomüxbirin çəkdiyi çoxsaylı fotolardan birini götürüb o dahi insanla söhbətimizdən xatirə kimi saxlamaq yadıma düşməyib. Görünür, bu da ovaxtkı gənclik təcrübəsizliyinin nəticəsidir. Çox təəssüf…

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 14 mart (№ 56).- S.16.